

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 246 (21.907)

*27 dekabr 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına işgüzar səfərə gedib.

Prezident İlham Əliyev MDB dövlət başçılarının Moskvada keçirilən qeyri-rəsmi görüşündə iştirak etmək üçün "Novo-Oqaryovo" dövlət iqamətgahına gəlib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi salamlayıb.

Sonra MDB dövlət başçıları birgə foto çəkdiriblər.

Daha sonra MDB dövlət başçılarının qeyri-rəsmi görüşü olub.

Dövlət başçıları görüşdə çıxış ediblər.

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasının çağırılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyası 2017-ci il dekabr ayının 30-da saat 11[00]-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2017-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2018-ci il dövlət büdcəsinin təsdiq edilməsi
3. İşsizlikdən sığorta fondunun 2018-ci il büdcəsinin təsdiq edilməsi
4. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2018-ci il büdcəsinin təsdiq edilməsi
5. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 26 dekabr 2017-ci il*

## İstehsalat təcrübəsi keçən tələbələrlə görüş olub



***Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi ixtisasının IV kurs tələbələri noyabr ayının 10-dan dekabr ayının 27-dək Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində təcrübə keçiblər. Təcrübə müddətinin yekunu olaraq nazirlikdə tələbələrlə görüş olub.***

Görüşdə Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncama əsasən Naxçıvan Dövlət, "Naxçıvan" universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Dövlət Texniki Kollecinin bir sıra ixtisasları Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin hamiliyinə verilib. Müvafiq ixtisaslarda təhsil alan tələbələrlə mütəmadi görüşlər keçirilir, onların ixtisaslarına daha dərindən yiyələnmələri üçün köməklik göstərilir.

Son illərdə muxtar respublikada yeni texnologiyaların tətbiqi haqqında tələbələrə məlumat verən nazir qeyd edib ki, bu gün heç bir sahəni informasiya texnologiyalarından kənarda təsəvvür etmək mümkün deyil. Dünya təcrübəsi göstərir ki, qısa vaxtda çox, həm də keyfiyyətli nəticə əldə etmək üçün bu sahənin inkişafı və daim yenilənməsi vacib məsələdir. Sözügedən inkişaf isə yalnız peşəkar kadrların hesabına mümkündür. Buna görə də məqsədimiz gələcəkdə informasiya-kommunikasiya texnologiyaları sahəsində çalışacaq kadrların daha peşəkar yetişməsi, onların seçdikləri ixtisasların sirlərinə dərindən yiyələnmələridir. Bu gün nazirlikdə istehsalat təcrübəsində fəal iştirak edən və təhsil müəssisələrində yaxşı nəticələr göstərən tələbələr təhsillərini başa vurduqdan sonra işlə təmin olunmaq üçün nazirliyə müraciət edə bilərlər.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin dekanı Cavanşir Zeynalov, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin İqtisadiyyat və mühasibat uçotu şöbəsinin aparıcı məsləhətçisi Hüsniyyə Rəcəbova, Efirə nəzarət və radiotezliklərin qeydiyyatı şöbəsinin baş məsləhətçisi Cavid Mustafayev çıxış ediblər.

Tələbələrdən Leyla İsmayılova və Murad Əliyev istehsalat təcrübəsinin əhəmiyyətindən danışıb, yaradılmış şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Tədbirə Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov yekun vurub.

## Şahbuzda daha bir müasir zavod tikilir

*Muxtar respublikamızda başlıca məqsədi insan amilinə xidmət edən quruculuq işləri sakinlərin rahatlığına, rifah halının yaxşılaşmasına səbəb olub. Dağlıq ərazidə yerləşən Şahbuz rayonunun qəsəbə və kənd sakinləri də bu rifahdan pay alanlar sırasındadır.*

Rayonun geniş quruculuq işlərindən bəhrələnən yaşayış məntəqələrindən biri də Badamlı qəsəbəsidir. Burada son illər müasir məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binalar inşa olunub, 6 yaşayış binası əsaslı təmir edilib, qəsəbənin yollarına başdan-başa asfalt örtük salınıb. Hazırda isə mineral su yataqları ilə dillər əzbəri olan qəsəbədə, ümumilikdə, muxtar respublikamızın iqtisadiyyatına xeyli gəlir gətirəcək "Badamlı" zavodu tikilir. Tikintini "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyəti həyata keçirir.



Görülən işlər barədə danışan iş icraçısı Rauf Məmmədov dedi ki, tikintinin ümumi ərazisi 15 min kvadratmetrdən artıq sahəni əhatə edir. Zavod binası bu ərazinin 9 min 754 kvadratmetrində inşa olunur. Bunu muxtar respublikada tikilən ən böyük obyektlərdən biri hesab etmək olar.

Qazanxana, yeməkxana, yataqxana, mətbəx və laboratoriyanın fəaliyyət göstərəcəyi zavod binasına paralel korpusda hörgü işləri başa çatdırılıb. Zavodun inzibati binasının təməl yerinin hamarlanması üçün bura beton qatı verilib. Binanın arxa hissəsində hündürlüyü 5, uzunluğu 180 metr olan istinad divarının tikintisi başa çatdırılıb.

İş icraçısı onu da bildirdi ki, yaxın günlərdə binanın həyətyanı ərazisində abadlıq işlərinə başlanılacaq.

## Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının şura iclası keçirilib

***İclasda 2017-ci ilin ötən dövrü ərzində görülmüş işlər və qarşıda duran vəzifələr barədə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli məruzə edib.***



Bildirilib ki, bu il 25-ci yubiley ildönümü yüksək səviyyədə qeyd edilən Yeni Azərbaycan Partiyası bütün fəaliyyəti boyu özünün qurucusu, ümummilli lider Heydər Əliyevin müstəqil dövlətçilik ideyalarına sadiq qalıb, bu ideyaların həyata keçirilməsini başlıca amalı hesab edib. 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində ulu öndər Heydər Əliyev tərəfindən yaradılan partiya Azərbaycan dövlətini, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını müasir dövrün tələblərinə uyğun şəkildə sürətlə inkişaf etdirərək öz fəaliyyəti ilə xalq arasında nüfuzunu daha da artırıb, ümumxalq, ümumdövlət partiyası kimi müstəqillik tarixinə öz adını yazdırıb. Ötən illər ərzində yenidən qurulan Naxçıvan şəhərinin malik olduğu qədim milli və mənəvi dəyərlərlə səciyyələnən, həm də müasir inkişaf nümunəsi olan simasının yürüdülən quruculuq prosesinin ən gözəl nümunələrindən biri kimi hamılıqla qəbul olunması hər birimizdə qürur hissi doğurur. Muxtar respublika paytaxtının 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi şəhərimizin beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi nüfuzunu daha da artırır.

Qeyd edilib ki, partiyanın Naxçıvan Şəhər Təşkilatı öz fəaliyyətini Yeni Azərbaycan Partiyasının 2013-cü ilin iyununda keçirilən V Qurultayı, partiyanın Naxçıvan Muxtar Respublika Təşkilatının 2014-cü ilin noyabrında keçirilən V Konfransı və Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il martın 16-da keçirilən iclasında qarşıya qoyulan vəzifələrin ardıcıl icrası istiqamətində qurub, ölkəmizin, doğma diyarımızın və Yeni Azərbaycan Partiyasının ümumi inkişaf tempinə uyğun fəaliyyət göstərib. 2017-ci il üçün iş planında nəzərdə tutulan tədbirlərin vaxtlı-vaxtında və yüksək səviyyədə həyata keçirilməsi, ilk təşkilatlarla işin gücləndirilməsi, siyasi-ideoloji işdə və partiyaya yeni üzvlərin cəlb edilməsi məsələsində keyfiyyət amili təşkilat üçün prioritet təşkil edib.

Diqqətə çatdırılıb ki, ötən müddətdə təşkilatda 11 İdarə Heyəti, 4 şura yığıncağı, əlamətdar və tarixi hadisələrlə bağlı 6 elmi-praktik konfrans, 3 kütləvi tədbir, 1 dəyirmi masa keçirilib. 2017-ci ildə partiyaya 1176 nəfər üzv qəbul olunub ki, bunların da 674 nəfərini qadınlar, 1152 nəfərini 18-35 yaşlı gənclər təşkil edir. Nəticədə, bu il Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı üzvlərinin sayı 17 min 92 nəfərə çatıb. Bunlardan 8 min 938 nəfərini qadınlar, 10 min 73 nəfərini 18-35 yaşlı gənclər təşkil edir. Üzvlərdən 2 nəfəri Azərbaycan Respublikası Milli Məclisinin, 20 nəfəri isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarıdır. Həmçinin təşkilatda 2 nəfər akademik, 7 nəfər AMEA-nın müxbir üzvü, 27 nəfər elmlər doktoru, 162 nəfər fəlsəfə doktoru təmsil olunur.

Sonra məruzə ətrafında çıxışlar olub. Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Allahverdiyeva, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin sədri Cəbi Quliyev, şura üzvləri, Heydər Əliyev adına tam orta məktəb ərazi ilk təşkilatının sədri Könül Mirzəyeva, Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri Asəf Əliyev çıxış ediblər.

İclasda Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı, şura üzvü Vüqar Səfərov çıxış edərək Naxçıvan şəhərində həyata keçirilən quruculuq işləri haqqında ətraflı məlumat verib, görülən işlərdən bəhs edib.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov çıxışında qarşıda duran vəzifələrdən danışıb.

Sonda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının 2017-ci ildəki fəaliyyətinin qənaətbəxş qiymətləndirilməsi haqqında qərar qəbul edilib.

**Xəbərlər şöbəsi**

Kənd təsərrüfatı

# 2017-ci il muxtar respublikada aqrar nailiyyətlər ili kimi yaddaşlara yazılacaq

***Artıq 2017-ci ilin sonuna yaxınlaşırıq. Əvvəlki illərdə olduğu kimi, cari ildə də muxtar respublika iqtisadiyyatında hərtərəfli inkişafın təmin edilməsi davam etdirilib. Bu il Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın müxtəlif sahələri üçün uğurlu olub. Kənd təsərrüfatı sahəsində isə daha çox müsbət dəyişikliklərin baş verməsi diqqət çəkir. Bunu necə xarakterizə etmək olar?***

Əvvəlcə onu qeyd edək ki, bu gün Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi dövlətimizin prioritet qəbul etdiyi strateji istiqamətlərdəndir. Bu sahədə müxtəlif dövlət proqramlarının qəbul edilməsi, sahibkarlar, xüsusilə torpaq mülkiyyətçiləri ilə keçirilən görüşlər, dövlət tərəfindən bu sahə ilə məşğul olanlara hərtərəfli yardımların göstərilməsi ölkəmizdə, eləcə də muxtar respublikamızda aqrar bölmənin inkişaf perspektivlərini müəyyənləşdirməyə imkan vermişdir. Diqqət ediləsi məqamlardan biri odur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin müxtəlif dövrlərini əhatə edən sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclaslarında kənd təsərrüfatının inkişafı ilə bağlı səsləndirilən fikirlərin, qarşıya qoyulan hədəflərin vacibliyi dəfələrlə vurğulanmış, bu sahənin gələcək inkişafı daha çox müzakirə predmetinə çevrilmişdir. Eyni zamanda ölkə başçısının regionlara səfəri zamanı qeyri-neft sektorunun inkişafının təmin edilməsini hər görüşdə səsləndirməsi, əlavə olaraq, dünya bazarına çıxarılacaq müxtəlif kənd təsərrüfatı məhsullarının təşviqi ilə bağlı söylədiyi fikirlər, sözün həqiqi mənasında, ölkəmizdə kənd təsərrüfatı sahəsinin inkişafına yeni yanaşmanı ortaya qoymuşdur. Təkcə onu vurğulamaq lazımdır ki, ölkə başçısının da dediyi kimi, bu il Azərbaycana kənd təsərrüfatı texnikalarının gətirilməsi sayına görə lider il olacaq. Yalnız bu il üçün ölkəmizə gətirilməsi əvvəlcədən müəyyən olunmuş kənd təsərrüfatı texnikalarının sayı 10 min ədəddir.

Bu gün muxtar respublikamızda da analoji sektor yeni inkişaf mərhələsinə qədəm qoyub. Cari ildə muxtar respublikada kənd təsərrüfatının vacib istiqamətləri üzrə həyata keçirilən tədbirlərin həcmi o qədər çoxşaxəlidir ki, bu tədbirlərin hər biri haqqında bir yazıda ayrılıqda bəhs etmək mümkün deyil. Buna görə də bu haqda fikirlərimizi ümumi olaraq oxucularımıza çatdırmağa çalışacağıq.

2017-ci ildə muxtar respublikamızda kənd təsərrüfatının inkişafı sahəsində atılan ən əhəmiyyətli addım "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikasının 2017-ci il 25 iyul tarixli Qanununun tətbiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı oldu. Bu qanun müstəqillik dövrü tarixində Naxçıvanın ənənəvi kənd təsərrüfatı bitkilərini məhv olmaq təhlükəsindən xilas edən, yerli bitki növlərinin sort təmizliyini qoruyacaq ən mühüm dövlət sənədidir.

Məlumat üçün qeyd edək ki, hər bir ölkənin toxum ehtiyatı həmin ölkənin ərzaq ehtiyatı ilə bərabər səviyyədə tutulur və strateji xarakter daşıyır. Muxtar respublikada ilk dəfə olaraq qəbul edilən bu qanun toxum istehsalının, tədarükünün və istifadəsinin hüquqi əsaslarını müəyyən edir və əkinçilikdə mühüm qərarların verilməsində əsas baza rolunu oynayır. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Sahibkarlara elit, I və II reproduksiyalı buğda və arpa toxumlarının satışının təşkil edilməsi, eləcə də 70 faiz güzəştli şərtlərlə mineral gübrələrin verilməsi təmin edilir. Bundan əlavə, istehsal olunan I və II reproduksiyalı toxumların satışına görə dövlət tərəfindən subsidiyaların ödənilməsi, eləcə də əkin sahəsinin hər hektarına fermerlərə 50 manat yardım verilməsi təmin olunur.



Kənd təsərrüfatının bitkiçilik sahəsində əldə olunan uğurlarda muxtar respublika sahibkarlarının müasir kənd təsərrüfatı texnikaları ilə təchiz olunmasının böyük rolu vardır. Hazırda muxtar respublikada sahibkarlara aqroservis xidməti "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin rayonlarda olan kənd təsərrüfatı maşın və aqreqatları ilə yanaşı, həm də şəxsi texnikalar vasitəsilə həyata keçirilir. Ötən dövr ərzində "Naxçıvan Aqrolizinq" ASC-nin xətti ilə 1978 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilmiş, onlardan 1688 ədədi nağd hesablaşma və lizinq yolu ilə sahibkarlara satılmışdır. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin 1 noyabr 2017-ci il tarixə olan məlumatına görə, alınmış texnika və aqreqatların 143 ədədi cari ilin 9 ayında gətirilib.

Muxtar respublikada, demək olar ki, hər il torpaq sahələrinin su ilə təminatının yaxşılaşdırılması tədbirlərinin şahidi oluruq. Bu da yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verir. 2015-ci ildə Vayxır sol sahil kanalından qidalanan və 2200 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma və drenaj şəbəkəsi, 2016-cı ildə Babək rayonunun Kültəpə və Kərimbəyli kəndlərinin 565 hektar torpaq sahəsini əhatə edən yeni suvarma şəbəkəsi istifadəyə verilib. Bu il isə Kəngərli rayonunun Böyükdüz kəndini əhatə edən yeni suvarma şəbəkəsinin açılışı olub ki, bu suvarma sisteminin qurulması nəticəsində 407 hektar torpaq sahəsində suvarma işləri yaxşılaşdırılıb.

Son illər əkinçilik üçün yararlı olmayan torpaq sahələrində iməciliklər yolu ilə salınan yeni meyvə bağları muxtar respublikanın yaşıl örtüyünü zənginləşdirməklə yanaşı, həm də əhali tələbatının ödənilməsi üçün geniş imkanlar açır. Hər il bu meyvə bağlarından tonlarla məhsul yığılır. Yeni və ənənəvi meyvə sortlarından ibarət bağların salınması davam etdirilir. Son illərdə ixrac qabiliyyəti yüksək olan meyvə növlərinin yetişdirilməsi diqqət mərkəzində saxlanılaraq bu istiqamətdə mühüm işlər görülüb. Belə ki, Naxçıvan-Sədərək avtomobil yolunun Kəngərli rayonu ərazisindən keçən hissəsində 100 hektara yaxın püstə bağı salınıb. Cari ildə isə adıçəkilən rayonun Xok kəndinin ərazisində 15 hektardan artıq yeni badam bağı salınıb. Bu qiymətli bitkinin dünya bazarında tutduğu yer, xüsusilə fərqlidir. Ona görə də yüksək ixrac potensialına malik badam haqqında bəzi məlumatları oxucularımızla bölüşmək maraqlı olar.

Qeyd edək ki, hələ keçmiş zamanlardan Naxçıvanda bu ağacın yetişdirilməsi diqqət mərkəzində olub. Ölkəmizin digər bölgələrindən isə əsasən, Abşeron yarımadası, Gəncə-Qazax və Şirvan zonasında badam bağlarına rast gəlmək olar. Hazırda Azərbaycanda badam istehsalının 83 faizi Naxçıvan Muxtar Respublikasının payına düşür. Dünya ölkələrinə gəldikdə isə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına əsasən badam bağlarının ümumi sahəsinə görə Avropa İttifaqı ABŞ və Avstraliyanı qabaqlasa da, məhsul istehsalında lider Amerika Birləşmiş Ştatlarıdır. Belə ki, dünyada badam istehsalının 83 faizi də



ABŞ-ın payına düşür. Daha böyük ərazidə əkilməsinə baxmayaraq, istehsal olunan məhsula görə ABŞ-ın Avropa İttifaqı ölkələrini kəskin qabaqlaması məhsuldarlığın yüksək olması ilə əlaqədardır. Hazırda bu sahədə hər hektarda orta məhsuldarlığa görə ilk yerdə ABŞ dayanır. Sonrakı yerləri Avstraliya və Türkiyə tutur. Bundan əlavə, onu da qeyd edək ki, dünyada badam yeyinti məhsulu olmaqla yanaşı, həmçinin tibb və ətriyyat sənayelərinin də əvəzolunmaz xammalıdır. Eyni zamanda bu meyvənin qabıq və oduncağından da müxtəlif sənaye sahələrində geniş istifadə edilir. Buna görə də ölkəmizdə badamçılığın inkişafı bu məhsul üzrə idxaldan asılılığı azaltmaqla yanaşı, ixrac imkanları da yarada, xeyli miqdarda valyuta gətirə bilər. Bu baxımdan dövlətimizin başçısının badam emalı zavodunun tikintisi ilə bağlı tapşırığı da təsadüfi deyil. Xatırladaq ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində bu məsələyə toxunan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə 500 hektar ərazidə yeni badam bağlarının salınmasının nəzərdə tutulduğunu, bunun ilkin mərhələ üçün yaxşı göstərici olduğunu bəyan etmişdir: ***"Nəzərə alsaq ki, bizdə cəmi 1000 hektar badam bağları var, onların da 900 hektarı Naxçıvan Muxtar Respublikasındadır, 500 hektar birinci mərhələdə yaxşı göstəricidir".***

Muxtar respublikamızda cari ildə həyata keçirilən mühüm tədbirlərdən biri də regionun ənənəvi kənd təsərrüfatı bitkilərindən olan tütünçülüyün inkişaf etdirilməsi ilə bağlıdır. Tütün iqtisadi əhəmiyyətinə görə ölkəmizdə pambıqdan sonra ikinci texniki bitki hesab olunur. Keçmiş SSRİ dövründə Azərbaycanda geniş təşəkkül tapmış və ölkənin kənd təsərrüfatı sahəsində əhəmiyyətli yerə malik olmuş aqrar sahələrdən biri tütünçülük idi. Respublika tütün istehsalına görə Moldova və Ukraynadan sonra 3-cü yeri tuturdu. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu aqrar siyasət nəticəsində Azərbaycanda tütünçülük çox sürətlə inkişaf etdirilmiş, bu sahənin böyük sənaye potensialı yaradılmışdır. Mütəxəssislərə görə, ölkəmizdə ən keyfiyyətli məhsul Şəki-Zaqatala bölgəsində və Naxçıvan Muxtar Respublikasında əldə olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" tütünçülüyün inkişafı sahəsində geniş imkanlar açıb. Naxçıvan Muxtar Respublikasında da bu gəlirli sahənin inkişafı üçün mühüm addımlar atılır. Bu məqsədlə cari ildə Kəngərli rayonunun Təzəkənd və Xıncab kəndlərində təcrübə məqsədilə tütün əkini aparılıb. "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı tərəfindən rayonun bu yaşayış məntəqələrinin ərazilərində əkin keçirilib. Əkin sahələrində, əsasən, Virciniya, Oriental və İzmir tütün sortlarından istifadə olunub. Eyni zamanda burada Tütün Yetişdirmə Təsərrüfatı fəaliyyətə başlayıb. Təsərrüfatın ərazisində istixanalar, yeraltı su anbarı, tütünqurutma yeri və anbarlar yaradılıb. Təcrübə məqsədilə rayonda əkilmiş tütün sortlarından gələcək illərdə muxtar respublikanın digər bölgələrində də istifadə olunacağı gözlənilir. Bu məlumatları bölüşməkdə məqsədimiz ondan ibarətdir ki, muxtar respublikada aqrar sahədə həyata keçirilən hər bir tədbir uzunmüddətli perspektivə hesablanmış kompleks xarakter daşıyır.

Digər tərəfdən, son illərdə əhalini ilboyu meyvə-tərəvəz məhsulları ilə təmin etmək muxtar respublikada aqrar sahədə həyata keçirilən əsas tədbirlərdəndir. İritutumlu soyuducu anbarların tikilməsi və istixana komplekslərinin yaradılması ilin istənilən fəslində daxili bazarın tələbatının ödənilməsinə imkan verir.

Kənd təsərrüfatının inkişafından söz düşmüşkən onu da vurğulamaq lazımdır ki, indiyədək muxtar respublikada bu sahənin inkişafı üçün bir çox dövlət proqramları qəbul edilərək uğurla icra olunub. Təkcə onu qeyd etmək yerinə düşər ki, hazırda icrası davam etdirilən "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" və "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" birbaşa və yaxud əsas etibarilə muxtar respublikada kənd təsərrüfatının inkişafını nəzərdə tutur. Bundan əlavə, son illərdə muxtar respublikamızın paytaxt şəhəri Naxçıvanda müxtəlif festivalların təşkili ənənə halını alıb. Bu festivalların da, əsasən, kənd təsərrüfatı yönümlü olması bu sahənin təşviqinə göstərilən böyük diqqətin nəticəsi kimi qiymətləndirilməlidir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada 388 milyon 627 min 400 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 4 faiz üstələyib. Bu, həm də onun göstəricisidir ki, muxtar respublikada kənd təsərrüfatının inkişafı davamlı xarakter daşıyır və bu sahədə yaradılmış potensial baza növbəti illərdə daha mühüm nailiyyətlərin qazanılmasına öz töhfəsini verəcək.

**Səbuhi HƏSƏNOV**

*Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının dinamik inkişafı nəticəsində Dövlət Sosial Müdafiə Fondunun hesabına ödənilən məcburi dövlət sosial sığorta haqları artıb və sosial sığorta sisteminin sürətli inkişafına zəmin yaradılıb.*

## Sosial sığorta şəhadətnamələri verilib

Muxtar respublikamızda mütərəqqi beynəlxalq standartlara uyğun qurulmuş müasir sığorta-pensiya sisteminin mühüm bir komponenti olan fərdi uçot sistemində 2017-ci ilin ötən dövrü ərzində 4323 nəfər yeni əmək fəaliyyətinə başlayan sığortaolunana sosial sığorta şəhadətnaməsi verilib. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu Naxçıvan şəhər şöbəsi üzrə 2059, Şərur rayon şöbəsi üzrə 826, Babək rayonu üzrə 534, Sədərək rayonu üzrə 29, Ordubad rayonu üzrə 329, Culfa rayonu üzrə 262, Şahbuz rayonu üzrə 106, Kəngərli rayonu üzrə 178 nəfərə sığorta şəhadətnaməsi verilib. Nəticədə, muxtar respublikada fərdi şəxsi hesabı olan sığortaolunanların sayı 168 min 823 nəfərə çatıb.

Naxçıvan Muxtar Respublikasının Elektron Hökumət Portalına *(e-hokumet.nmr.az)* və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun *(www.dsmf.nakhchivan.az)* internet səhifəsinə daxil olan sığortaedənlər "Sığortaolunanın onlayn uçota alınması" elektron xidmətindən istifadə etməklə fərdi uçot sistemində uçota alınaraq sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi prosesini elektron qaydada həyata keçirə bilərlər. "Sığortaolunanın onlayn uçota alınması" xidməti sığorta-pensiya sistemində şəffaflığın daha da artırılmasını təmin edir.

Hər bir işləyən vətəndaş özünün təminatlı gələcəyi üçün sosial sığorta şəhadətnaməsini mütləq əldə etməlidir. Eyni zamanda aldığı əməkhaqqının tam məbləğdə əməkhaqqı cədvəlində göstərilməsinə çalışmalı, işlədiyi dövrlər üçün işəgötürən tərəfindən məcburi dövlət sosial sığorta haqlarının tam miqdarda ödənilməsinə maraqlı olmalıdır. Çünki respublikamızda təyin edilən əmək pensiyalarının məbləği sığorta stajından və vətəndaşın fərdi şəxsi hesabında toplanmış məcburi dövlət sosial sığorta haqlarının miqdarından asılıdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## 30 min 925 hektar sahədə taxıl əkilib



Muxtar respublikada əhalinin çörək və çörək məhsullarına olan tələbatının yerli imkanlar hesabına ödənilməsi istiqamətində uzun illərdir ki, həyata keçirilən tədbirlər öz bəhrələrini verir. Ona görə də taxılçılığa maraq ildən-ilə artır. Cari ildə də torpaq mülkiyyətçilərinin yüksək reproduksiyalı toxumlarla təmin olunması, onlara güzəştli kreditlərin verilməsi, əkin sahələrinin şumlanması üçün texnikaların alınması diqqət mərkəzində saxlanılıb. Bu səbəbdən də taxıl zəmilərindən keyfiyyətli məhsul tədarük olunub.

Bundan ruhlanan torpaq mülkiyyətçiləri 2018-ci ilin bol məhsulunun əsasını qoymaq üçün yaradılan şəraitdən və havaların xoş keçməsindən səmərəli istifadə ediblər. Belə ki, dekabr ayının 18-dək 30 min 925 hektar sahədə əkin aparılıb. Əkilmiş sahənin 22 min 653 hektarını buğda, 8 min 272 hektarını arpa təşkil edir. Taxıl əkini kampaniyasında Babək və Culfa rayonları irəlidə gedir.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının konfransı keçirilib

***Dekabrın 26-da Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının konfransı keçirilib. Konfransa Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının Nəzarət-Təftiş Komissiyasının sədri Sultan İsmayılov sədrlik edib. Konfransın gündəliyi təsdiq edildikdən sonra Əbülfəz Əsgərovun hesabat məruzəsi dinlənilib.***

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində bütün sahələrdə yüksək nailiyyətlər qazanılıb. Qazanılan nailiyyətlər muxtar respublikada ağsaqqalların, ahıl vətəndaşların sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub. Muxtar respublikada ağsaqqallar, ahıl vətəndaşlar hər cür dövlət qayğısı ilə əhatə olunublar.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurası muxtar respublikada sosial-iqtisadi sahələrdə həyata keçirilən dövlət siyasətini təbliğ edən, ahıl vətəndaşların muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirakına çalışan ictimai təşkilatdır. Şura hesabat dövründə fəaliyyətini bu istiqamətdə qurmuş, muxtar respublikada aparılan quruculuq işlərinin, əldə olunan inkişafın əsas təbliğatçısı olmuş, milli və mənəvi dəyərlərimizin qorunması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində tədbirlər keçirmişdir.

Hesabat məruzəsi ətrafında müzakirələrdə Kəngərli Rayon Ağsaqqallar Şurasının sədri Nahas Səfərovun və Sədərək Rayon



Ağsaqqallar Şurasının sədri Əkbər Kərimovun çıxışları dinlənilib. Hesabat məruzəsi və məruzə ətrafında çıxışlarda muxtar respublikada aparılan tikinti-quruculuq işlərinə, əldə olunan inkişafa, həmçinin ağsaqqallara göstərilən qayğıya görə ağsaqqallar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlıq edilmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının Nizamnaməsi oxunub və səsə qoyularaq yekdilliklə qəbul olunub.

Konfransda İdarə Heyətinin 5 nəfərdən ibarət yeni tərkibi seçilib. Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının üzvü Əkrəm Məmmədli Məmmədov Məmməd Qasım oğlunun Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədrliyinə namizədliyini irəli sürüb. Təklif səsə qoyulub və qəbul olunub.

Məmməd Məmmədov göstərilən etimada görə minnətdarlığını bildirərək qeyd edib ki, fəaliyyətini günün tələbləri səviyyəsində quracaq, gənc nəsillə bağlı işə diqqətini artıracaq, vətənpərvər gəncliyin yetişdirilməsi, milli dəyərlərin, adət-ənənələrin yaşadılması istiqamətində tədbirlər keçirəcəkdir.

Konfransda Ağsaqqallar Şurasının Nəzarət-Təftiş Komissiyasının yeni tərkibi müəyyən olunub. Komissiyanın üzvlüyünə namizədlər səsə qoyulub və qəbul olunub. İsmayılov Sultan İsmayıl oğlu Nəzarət-Təftiş Komissiyasının sədri seçilib. Müzakirə olunan məsələlərlə əlaqədar hazırlanmış qərar layihəsi oxunub və səs çoxluğu ilə qəbul olunub.

Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədrini, İdarə Heyətini və Nəzarət-Təftiş Komissiyasına yeni seçilən üzvləri təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində Ağsaqqallar Şurasının fəaliyyəti üçün zəruri iş şəraiti yaradılıb, ağsaqqalların sanatoriya və müalicə mərkəzlərinə göndərilməsi, pensiya və müavinətlərinin vaxtlı-vaxtında ödənilməsi, xüsusi imtiyazı olanların avtomobil və mənzillərlə təminatı diqqətdə saxlanılıb, bu istiqamətlərdə bir sıra tədbirlər görülüb. Bununla yanaşı, yaşlı nəslin nümayəndələrinin asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə Naxçıvan şəhərində yerləşən 2 nömrəli Təqaüdçülər Klubu yenidən qurularaq ağsaqqalların istifadəsinə verilib.

Vurğulanıb ki, muxtar respublika ağsaqqalları yaradılan şəraitdən səmərəli istifadə edir, muxtar respublikanın sosial-iqtisadi, ictimai və mədəni həyatında yaxından iştirak edir, yeniyetmə və gənclərin Vətənə məhəbbət, milli və mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edilməsində müstəsna xidmətlər göstərirlər.

Rəhman Məmmədov Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının bu sahədə fəaliyyətini daha da gücləndirəcəyinə əminliyini bildirərək, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Bununla da Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının konfransı öz işini başa çatdırıb.

✍ **Nail ƏSGƏROV**

*Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində keçirilən seminar-müşavirədə 2017-ci ilin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub.*

# Seminar-müşavirə olub



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin Nəqliyyatda ələqələndirmə və lisenziyalaşdırma şöbəsinin müdiri Yasin Əliyev bildirib ki, bu gün nəqliyyat sahəsinin inkişafı diqqətdə saxlanılır. Sərnişindaşıma fəaliyyəti göstərən avtonəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması üçün sahibkarlarla maarifləndirmə işi aparılır, ucqar dağ və sərhəd kəndlərində işləyən marşrut avtobuslarının fəaliyyətinə ciddi nəzarət olunur.

"Şəhərdaxili nəqliyyatda qış mövsümünün qüsursuz başa vurulması yolları" mövzusunda çıxış edən Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinin rəis əvəzi İlkin Məmmədov vurğulayıb ki, 2017-ci ilin iyul ayında idarəyə 5 ədəd minik avtomobili alınıb, avqust ayından etibarən isə sərnişindaşıma nəqliyyat xidmətinə cəlb edilib. Qış mövsümü ərzində soyuq hava şəraiti nəzərə alınaraq avtobusların daxili qızdırıcı sistemləri təmir olunub. Sərnişindaşıma xidmətinin keyfiyyətinin yüksəldilməsi üçün nəqliyyat vasitələrinin texniki cəhətdən saz vəziyyətdə olması bu gün də diqqətdə saxlanılır.

Nəqliyyat Nazirliyinin Nəqliyyatda təhlükəsizlik və fövqəladə hallar sektorunun müdiri Əsgər Əhmədov "İctimai nəqliyyatda, avtobus parkında və avtovağzallarda hərəkətin təhlükəsizliyinin təmin edilməsi qaydaları, fövqəladə hallar zamanı qarşılıqlı fəaliyyətin təşkili" mövzusunda çıxış edib. Bildirib ki, il ərzində nazirliyin Nəqliyyatda təhlükəsizlik və fövqəladə hallar sektorunun işçiləri Naxçıvan şəhərində işləyən müxtəlif marşrutların, irihəcmli avtobusların çəkic, tibbi dərman qutusu, yanğınsöndürən balonlarla təmin olunmasına, bu yanğınsöndürən balonların işlək vəziyyətdə olmasına nəzarəti gücləndirib.

Sonra suallar cavablandırılıb.

✍ **Fatma BABAYEVA**

*Təhsil millətin gələcəyidir*

# Qayğı olan yerdə uğur qazanmaq çətin deyil

***Ölkəmiz dövlət müstəqilliyinə qovuşduqdan sonra bütün sahələrdə olduğu kimi, təhsildə də xeyli irəliləyişlər əldə edilib. Təhsil ocaqları üçün müasir standartlara cavab verən yeni binalar tikilib, yararsız binalar əsaslı surətdə yenidən qurulub. Bunu muxtar respublikamızın timsalında da görmək mümkündür. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində son illər ərzində regionda 200-dən artıq təhsil müəssisəsi üçün bina tikilib və ya əsaslı şəkildə yenidən qurulub, onlar ən müasir tədris avadanlıqları və informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub. Həmin texnologiyalardan səmərəli istifadə təmin edilib. Sevindirici haldır ki, sovet dönəmindən fərqli olaraq, indi paytaxt Naxçıvan şəhərindəki məktəb binası ilə ən ucqar dağ kəndindəki təhsil ocağının binası arasında heç bir fərq yoxdur. Bütün bunlar isə tədrisin səviyyəsinin yüksəldilməsinə imkan verib. Elə bunun nəticəsidir ki, son illərdə ali məktəblərə qəbulun keyfiyyət göstəricisi xeyli yaxşılaşıb.***







Ötən günlərdə Ordubad şəhər 3 nömrəli tam orta məktəbdən yazı hazırlamaq üçün həmin təhsil ocağına gedərkən yolboyu xəyalımda sovet dövründə muxtar respublikada fəaliyyət göstərən məktəblərin vəziyyəti haqqında yaşlı adamlardan eşitdiklərimi canlandırmağa çalışırdım. Onlar deyirdilər ki,O dövrdəki məktəblərdə tələblərə cavab verməyən sinif otaqları, köhnəlmiş tədris avadanlıqları şagirdlərin yaxşı təhsil almasına imkan vermirdi. Qış günlərində vəziyyət daha da gərginləşirdi. Tədris məşğələlərində fasilələrə yol verilirdi. Bu vəziyyətdə tədrisin səviyyəsindən danışmağa dəyməzdi. O zaman muxtar respublikada müasir tələblərə cavab verən məktəb binaları çətin tapılırdı. Fərəhləndirici haldır ki, gələcəyimiz olan uşaqlar bu gün təkcə Naxçıvan şəhərində deyil, ən ucqar dağ kəndlərində belə, müasir məktəb binalarında, yeni təhsil metodlarının tətbiq edildiyi sinif otaqlarında oxuyur, dərsliklərlə pulsuz təmin olunurlar. Müəllimlərin və şagirdlərin ixtiyarına zəngin laboratoriyalar verilib. Tədris ocaqlarında fəaliyyət göstərən kitabxanalar da tam tələblərə uyğun kitablarla komplektləşdirilib. Elə Ordubad şəhər 3 nömrəli tam orta məktəbdə gördüklərim də bu qənaətə gəlməyə əsas verir. Məlumat üçün bildirək ki, məktəb 1964-cü ildə fəaliyyətə başlayıb. Köhnə bina yararsız olduğundan məktəb üçün yeni bina inşa edilərək 2015-ci il martın 29-da istifadəyə verilib.

Məktəbin direktoru Əliağa Rzayev söhbətə Ali Məclis Sədrinin məktəbin yeni binasının açılış mərasimində müəllimlərlə görüşündə dediyi fikirlərlə başladı: ***"Ordubad tarixən Azərbaycanın elm və təhsil mərkəzi olmuşdur. Bu torpaq böyük mütəfəkkirlər yetişdirmişdir. Görkəmli maarifçi-alim Məhəmməd Tağı Sidqi ilk dəfə Ordubad şəhərində dünyəvi məktəb yaratmış, gənc nəslin təhsil alması qayğısına qalmışdır. Bu ənənə müasir dövrdə də davam etdirilməlidir. Məktəb binasında yaradılan şərait gənclərin yaxşı təhsil almasına və hərtərəfli böyüməsinə hesablanmışdır. Müəllimlər bu imkanlardan səmərəli istifadə etməli, vətənpərvər və savadlı gənclər yetişdirilməlidir".*** Təhsil ocağı fəaliyyətini məhz muxtar respublika rəhbərinin tövsiyələri əsasında davam etdirir.

Əliağa Rzayev bildirdi ki, 810 şagird yerlik məktəbdə 5-i elektron lövhəli olmaqla, 45 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 3 kompüter, 2 şahmat, 2 müəllimlər otağı, kitabxana, bufet və idman zalı vardır. Binanın həyətində müxtəlif idman qurğuları quraşdırılıb, abadlıq işləri görülüb, güllüklər yaradılıb. Şahmat otağında şagirdlər şahmatın sirlərinə yiyələnir, geniş idman zalında isə müxtəlif idman növləri ilə məşğul olurlar. Təhsil ocağının hərbi kabinəsi əyani tədris vasitələri ilə təchiz edilib. Məktəbin kitabxana fondunda 19 mindən artıq kitab vardır. Burada şagirdlərin bilik və maraqlarına uyğun tədbirlərin keçirilməsi, onların fəal mütaliəyə cəlb olunması üçün lazımi şərait yaradılıb. Məktəbin müəllimləri məktəbdənkənar və sinifdənxaric tədbirlərin təşkilinə xüsusi diqqət yetirir, şagirdlər arasında müxtəlif viktorinalar, bilik yarışları, müsabiqələr təşkil edilir. Bütün bunlar şagirdlərin istedad və bacarıqlarının üzə çıxarılmasına, onların Vətənə layiqli vətəndaş kimi formalaşdırılmasına, şagirdlərin dövlətçiliyimizə, milli və mənəvi dəyərlərimizə sədaqət ruhunda tərbiyə olunmalarına xidmət edir.

Ordubad şəhər 3 nömrəli tam orta məktəbdə təhsil sisteminin informasiya texnologiyaları əsasında təkmilləşdirilməsi və interaktiv təlim metodlarından istifadə yüksək nəticələrin qazanılmasına imkan verib. Məktəbdə 57 kompüter quraşdırılıb və internetə qoşulub. Elektron lövhəli siniflər isə keçilən dərslərin əyaniliyini təmin edir. Belə ki, şagirdlər istənilən kimyəvi reaksiyanın, fiziki və bioloji proseslərin izahını və videogörüntülərini, müxtəlif cihazların, qurğuların, texniki vasitələrin işləmə prinsiplərini elektron lövhədə izləyə, eləcə də virtual tədris mübadiləsi apara bilirlər. Bu isə tədris materiallarının daha yaxşı mənimsənilməsinə köməklik edir. Yaradılan imkanlar məktəbdə təhsilin keyfiyyətini əhəmiyyətli dərəcədə artırıb. Təhsil ocağında dərsdən sonra da şagirdlərin hazırlığı ilə məşğul olmaq üçün onları fakültativ məşğələlərə cəlb etmək diqqətdə saxlanılır.

Hər il keçirilən qəbul imtahanlarında məktəbin yüksək nəticələr göstərməsi bunu bir daha təsdiqləyir. Bu baxımdan 2016-2017-ci tədris ilini də uğurlu hesab etmək olar. Belə ki, ötən tədris ilində məktəbi 28 məzun bitirib. Onlardan 21-i imtahanlarda yaxşı nəticə göstərərək tələbə adını qazanıb. Həmin abituriyentlərdən 9 nəfəri 500-700 intervalında bal toplayaraq müəllimlərinin etimadını doğruldublar.

Məktəbin kitabxanaçısı Kəmalə Seyidova bildirdi ki, son illər şagirdlər arasında mütaliəyə maraq xeyli artıb. Gün ərzində onlarla şagird kitabxananın xidmətindən istifadə edir. Ali Məclis Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamı kitabxana işi ilə məşğul olanlara və mütaliəsevərlərə ən dəyərli töhfədir. Kitabxanada siyahıda yer alan həmin kitablardan ibarət guşə yaradılıb.

Təhsil elə bir sahədir ki, burada dövlətin qayğısı və əməli fəaliyyət mühüm rol oynayır. Hazırda məktəbdə 558 şagirdin təlim-tərbiyəsi ilə 73 müəllim məşğul olur. Təhsil ocağının pedaqoji kollektivi şagirdlərin adlarının tələbələr sırasında olması üçün var qüvvəsi ilə çalışır. Bu təhsil ocağı 2013-cü ildə "Ən yaxşı məktəb" müsabiqəsinin qalibi olub. Məktəbdə Azərbaycan Respublikasının Əməkdar müəllimi Səkinə Tağıyeva, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi Nəzakət Əliyeva, "Tərəqqi" medalı ilə təltif edilmiş Sura Əliyeva ilə həmsöhbət oldum. Onlar bildirdilər ki, müasir məktəb binasında yaradılan şərait gələcəyimizə göstərilən qayğının ifadəsidir. Müasir tədris şəraiti məktəb kollektivini daha səylə çalışmağa, xalqımız və dövlətimiz üçün savadlı gənclər yetişdirməyə ruhlandırır.

Əldə olunan nailiyyətlər belə qənaət yaradır ki, məktəbin uğurları bundan sonra da artacaq, bu təhsil ocağı muxtar respublikada təhsilin inkişafına öz töhfələrini verəcək.

✍ **N.ƏSGƏROV**

# 2017-ci ilin quruculuq ərməğanları

## Müasirləşən kəndlərimiz


Naxçıvan şəhərinin Tumbul kəndi


Şərur rayonunun Çəmənli kəndi


Şərur rayonunun Arpaçay kəndi


Babək rayonunun Payız kəndi


Babək rayonunun Gərməçataq kəndi


Şərur rayonunun Ələkli kəndi


Ordubad rayonunun Üstüpü kəndi


Şərur rayonunun Qarahəsənli kəndi

***Həmişə yüksək ovqatla xatırlayacağımız 2017-ci il muxtar respublikamızda həyatın bütün sahələrində qazanılmış böyük uğurlarla yadda qalacaq. Belə ki, neçə illərdir, müasirləşməyə gedən yol cari ildə də davam etdirilib.***

***Dinamik xarakter alan tikinti-quruculuq tədbirləri, yeni emal və istehsal müəssisələrinin yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində görülən tədbirlər muxtar respublikanın tarixinə öz izlərini yazıb. Naxçıvan şəhərində, rayon mərkəzlərində, kənd yaşayış məntəqələrində həyata keçirilən kompleks quruculuq tədbirləri, ucqar dağ və sərhəd kəndlərində yaradılan şərait xüsusi vurğulanmalıdır. Bir ucu sərhəd bölgəmiz Sədərək, bir ucu füsunkar təbiəti ilə tanınan Şahbuz, bir ucu bağlar diyarı Ordubad olmaqla, neçə-neçə yaşayış məntəqəmiz quruculuq ab-havasına bürünüb. Həmin ünvanlarda istifadəyə verilən yeni obyektlər inkişafın, tərəqqinin soraqçısına çevrilib.***

***Bütün bunlar isə muxtar respublikada doğma yurd yerinə bağlılığın, sabaha cavabdehlik hissinin, qurub-yaratmaq əzminin davamlı olacağına bir daha əminlik yaradır.***

**Muxtar MƏMMƏDOV**

## Tələbələrin kütləvi profilaktik tibbi müayinələri başa çatıb

Muxtar respublikanın ali təhsil müəssisələrində və kolleclərdə təhsil alan tələbələrin və müəllim heyətinin kütləvi profilaktik müayinələri başa çatıb. Noyabrın 6-dan start götürən dispanserizasiya tədbirlərinə 6 min 160 tələbə və müəllim cəlb edilib.

Bu məqsədlə Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında terapevt, nevropatoloq, stomatoloq, dermatoloq, oftalmoloq, LOR, cərrahlardan ibarət həkim briqadası yaradılıb və ilk profilaktik müayinələr Naxçıvan Dövlət Universitetində həyata keçirilib. Kütləvi müayinələrdə bütün fakültələr əhatə olunmaqla, 3 min 156 nəfər iştirak edib. “Naxçıvan” Universitetində 924, Müəllimlər İnstitutunda 632, Tibb Kollecində 405, Musiqi Kollecində 618, Texniki Kollecdə isə 425 nəfər tibbi müayinələrdən keçib. Ciddi xəstəlik aşkar edilməyib.

Ehtiyac olan hallarda xəstələrin yüksəkixtisaslı həkimlərə konsultasiyası və laborator-diaqnostik müayinələri aparılıb. Bəzi xəstəliklərə meyilli hallar da müşahidə olunub. Həmin xəstələrin müalicəsi üçün tibbi göstəriş verilib.

Tələbələr arasında ürək-damar, şəkərli diabet, onkoloji və digər xəstəliklər barədə səhiyyə maarifi işləri aparılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Şərur şəhərində voleybol yarışı keçirilib



31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar olaraq Şərur şəhər 1 nömrəli tam orta məktəbdə rayonun ümumtəhsil məktəblərinin 14 komandası arasında voleybol yarışı keçirilib.

Rayon Təhsil Şöbəsi, Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 98 şagirdin iştirak etdiyi yarış mövcud voleybol qaydaları əsasında keçirilib və oyunları 5 nəfərdən ibarət hakimlər heyəti idarə edib.

Yarışda rayonun Çəmənli kənd tam orta məktəbinin komandası I, Alışar kənd tam orta məktəbinin komandası II, Vərməziyar kənd tam orta məktəbinin komandası III yerə layiq görülüb. Oyunun sonunda iştirakçılara hədiyyələr, fəxri fərman və diplomlar təqdim edilib.

**Mehman MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktorun müavini: RAUF ƏLİYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 1049